
Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Review Paper

AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİNİN AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ: NEOREALİST YANAŞMA

Hüseyn Abbasov

https://orcid.org/0009-0006-4502-5246

AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan

Article history
Received: 10.10.2026
Revised: 29.10.2026
Accepted: 11.11.2026

*Corresponding Author: Hüseyn Abbasov, AMEA Naxçıvan Bölməsi, Naxçıvan, Azərbaycan
Email: huseynabbasov109@gmail.com

Xülasə
Məqalədə Azərbaycan-İsrail münasibətlərinin formalaşma və inkişaf dinamikası, habelə bu münasibətlərin Azərbaycan-İran əlaqələrinə təsiri neorealist nəzəriyyə çərçivəsində təhlil edilir. Tədqiqatda əsaslandırılır ki, Azərbaycanın İsrail ilə qurduğu və son illərdə dərinləşdirdiyi strateji əməkdaşlıq təsadüfi xarakter daşımır, əksinə ölkənin milli təhlükəsizlik maraqları, regional risklər və güc balansı reallıqları ilə sıx şəkildə bağlıdır. Neorealist yanaşmaya görə, anarxik beynəlxalq sistemdə dövlətlər ilk növbədə öz təhlükəsizliklərini təmin etməyə çalışır və bu məqsədlə potensial tərəfdaşlıqlara üstünlük verirlər. Bu baxımdan Azərbaycan üçün İsrail ilə əməkdaşlıq regional təhlükəsizlik mühitində tarazlaşdırıcı mexanizm kimi çıxış edir. Ermənistanla uzunmüddətli münaqişə, regionda hərbi-siyasi qeyri-sabitlik və İranın artan təsir imkanları Azərbaycanın alternativ təhlükəsizlik və texnoloji tərəfdaşlar axtarmasını zəruri etmişdir. İsrail ilə hərbi-texniki və kəşfiyyat sahəsində əməkdaşlıq Azərbaycanın müdafiə qabiliyyətinin artırılmasına və regional güc balansında mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda, bu strateji yaxınlaşma İran tərəfindən mənfi və təhlükə yönümlü prizma ilə qiymətləndirilir. İran Azərbaycan-İsrail münasibətlərini öz milli təhlükəsizliyinə və regional mövqeyinə potensial risk kimi dərk edir və bu amil iki ölkə arasında etimadsızlığın dərinləşməsinə səbəb olur. Neorealist nəzəriyyəyə əsasən, bir dövlətin təhlükəsizliyini artırmağa yönəlmiş addımı digər dövlət tərəfindən təhlükə kimi qəbul edildikdə klassik "təhlükəsizlik dilemması" yaranır ki, bu da regional gərginliyi artıran əsas faktorlardan biridir. Beləliklə, Azərbaycan-İsrail strateji əməkdaşlığı bir tərəfdən Azərbaycanın milli maraqlarına və təhlükəsizlik ehtiyaclarına cavab versə də, digər tərəfdən Azərbaycan-İran münasibətlərində gərginlik yaradan əsas amillərdən biri kimi çıxış edir. Bu vəziyyət Cənubi Qafqazda güc balansının nə dərəcədə həssas və dəyişkən olduğunu bir daha nümayiş etdirir.
Açar sözlər: *Neorealizm, regional təhlükəsizlik, güc balansı, Azərbaycan–İsrail münasibətləri, Azərbaycan–İran münasibətləri*

GİRİŞ

Soyuq müharibənin başa çatması ilə beynəlxalq sistemdə ikipolyar strukturun dağılması və çoxqütblü güc mərkəzlərinin formalaşması regional və qlobal səviyyədə rəqabəti əhəmiyyətli dərəcədə gücləndirmişdir. Xüsusilə postsovet məkanında yerləşən regionlar yeni geosiyasi düzənin

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24138689

təsirlərini daha kəskin şəkildə hiss etmişdir. Bu kontekstdə Cənubi Qafqaz həm coğrafi mövqeyi, həm enerji resursları, həm də nəqliyyat-tranzit imkanları baxımından böyük güclərin maraq dairəsində strateji əhəmiyyətə malik region kimi çıxış edir (Sönmezoğlu, 2014, s. 902-903). Azərbaycan Respublikası məhz bu mürəkkəb geosiyasi mühitdə yerləşən dövlətlərdən biridir. Şərqlə Qərb arasında körpü rolunu oynayan coğrafi mövqeyi, zəngin enerji ehtiyatları və regional münaqişələrlə üzləşməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərini müəyyən edən fundamental amillər sırasındadır. Beynəlxalq sistemin anarxik xarakteri və regionda güc balansının daim dəyişməsi Azərbaycanı balanslaşdırılmış və çoxşaxəli xarici siyasət strategiyası yürütməyə məcbur etmişdir (Waltz, 1979, s. 101-102).

Bu çərçivədə Azərbaycanın İsrail ilə yaxın münasibətlər qurması yalnız ikitərəfli siyasi və iqtisadi maraqlarla məhdudlaşmır. Sözügedən münasibətlər daha geniş regional təhlükəsizlik mühitinin diktə etdiyi reallıqlar, xüsusilə Ermənistanla davam edən münaqişə, regional güclərin rəqabəti və təhlükəsizlik ehtiyacları fonunda formalaşmışdır. Neorealist yanaşmaya görə, orta ölçülü dövlətlər öz təhlükəsizliklərini təmin etmək üçün alternativ tərəfdaşlıqlara üstünlük verir və bu tərəfdaşlıqlar güc balansının qorunmasına xidmət edir (Kardaş & Balcı, 2014, s. 126-127). Azərbaycan–İsrail münasibətlərinin dərinləşməsi isə regional kontekstdə xüsusilə İran amili ilə sıx bağlıdır. İran regionun mühüm aktorlarından biri olaraq Azərbaycanın İsrail ilə strateji yaxınlaşmasını öz milli təhlükəsizliyi üçün potensial risk kimi qiymətləndirir. Bu amil Azərbaycan–İran münasibətlərində etimadsızlığın artmasına və zaman-zaman gərginliyin yüksəlməsinə səbəb olur (Rahimov, 2024, s. 1-2). Neorealist nəzəriyyəyə əsasən, bir dövlətin təhlükəsizliyini artırmağa yönəlmiş addımı digər dövlət tərəfindən təhlükə kimi qəbul edildikdə təhlükəsizlik dilemması yaranır ki, bu da regional sabitliyi zəiflədən əsas mexanizmlərdən biridir (Arı, 2013, s. 373-374).

Beləliklə, Azərbaycan-İsrail münasibətləri təkcə ikitərəfli əməkdaşlıq kontekstində deyil, daha geniş regional güc balansı və təhlükəsizlik arxitekturası çərçivəsində qiymətləndirilməlidir. Bu münasibətlərin Azərbaycan-İran əlaqələrinə təsiri isə Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların və beynəlxalq sistemdəki struktur dəyişikliklərin aydın təzahürü kimi çıxış edir.

Neorealist nəzəri çərçivə

Neorealist nəzəriyyə beynəlxalq münasibətlərdə realizm ənənəsinin struktur yönümlü davamı kimi çıxış edir və əsas diqqəti dövlətlərin davranışlarını formalaşdıran beynəlxalq sistemin quruluşuna yönəldir. Kenneth Waltz tərəfindən sistemləşdirilən bu yanaşmaya görə, beynəlxalq sistem anarxik xarakter daşıyır, yəni dövlətlər üzərində hökmranlıq edən mərkəzi bir otorite mövcud deyil. Bu şəraitdə dövlətlərin əsas məqsədi öz mövcudluqlarını və təhlükəsizliklərini qorumaqdır (Waltz, 1979, s. 101–102). Neorealizm dövlətlərin xarici siyasət davranışlarını onların daxili siyasi

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

quruluşu, ideoloji xüsusiyyətləri və ya liderlərin fərdi qərarları ilə deyil, beynəlxalq sistemdə tutduqları mövqe və gücün paylanması ilə izah edir. Bu baxımdan, dövlətlər rasional aktorlar kimi çıxış edir və mövcud təhlükəsizlik mühitinə uyğun şəkildə davranış modelləri formalaşdırırlar. Güc balansı, təhlükəsizlik dilemması və balanslaşdırma siyasəti neorealist nəzəriyyənin əsas analitik kateqoriyalarını təşkil edir (Arı, 2013, s. 169–172). Neorealist yanaşmaya əsasən, xüsusilə orta və kiçik dövlətlər beynəlxalq sistemdə daha həssas mövqedə olurlar. Bu tip dövlətlər böyük və regional güclər arasında yerləşdikləri üçün öz təhlükəsizliklərini təmin etmək məqsədilə balanslaşdırıcı siyasət yürütməyə məcbur qalırlar. Balanslaşdırma ya daxili imkanların artırılması (hərbi, iqtisadi gücün gücləndirilməsi), ya da xarici tərəfdaşlıqların qurulması yolu ilə həyata keçirilir (Waltz, 2015, s. 158–159). Bu nəzəri çərçivə Azərbaycan Respublikasının xarici siyasət davranışlarını izah etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Rusiya və İran kimi regional güclərin arasında yerləşən, eyni zamanda Ermənistanla uzunmüddətli münaqişə şəraitində olan bir dövlətdir. Bu geosiyasi mühit Azərbaycanın təhlükəsizlik ehtiyaclarını artırmış və onu alternativ strateji tərəfdaşlıqlar axtarmağa sövq etmişdir. Neorealist baxımdan Azərbaycanın İsrail ilə əməkdaşlığı məhz bu struktur məcburiyyətlərin nəticəsi kimi dəyərləndirilə bilər (Kardaş & Balcı, 2014, s. 126–127).

Neorealist nəzəriyyədə mühüm yer tutan anlayışlardan biri də təhlükəsizlik dilemmasıdır. Bu anlayışa görə, bir dövlətin öz təhlükəsizliyini artırmaq məqsədilə atdığı addımlar digər dövlətlər tərəfindən təhlükə kimi qavranıla bilər və nəticədə qarşılıqlı etimadsızlıq dərinləşər. Azərbaycanın İsrail ilə hərbi-texniki və strateji əməkdaşlığı İran tərəfindən məhz bu prizma ilə qiymətləndirilir və bu vəziyyət Azərbaycan–İran münasibətlərində gərginlik yaradan əsas amillərdən biri kimi çıxış edir (Rahimov, 2024, s. 56–58). Eyni zamanda, neorealizm balanslaşdırma siyasətinin yalnız qarşıdurma deyil, rasional və praqmatik davranış modeli olduğunu vurğulayır. Azərbaycan İsrail ilə əməkdaşlığı genişləndirməklə yanaşı, İran ilə münasibətləri tam konfrontasiya səviyyəsinə çatdırmamağa çalışır. Bu yanaşma neorealist nəzəriyyənin tövsiyə etdiyi rasional dövlət davranışına uyğun gəlir və Azərbaycanın çoxşaxəli xarici siyasət strategiyasını əks etdirir (Buzan & Wæver, 2003, s. 44-45).

Nəticə etibarilə, neorealist nəzəri çərçivə Azərbaycan–İsrail münasibətlərinin formalaşmasını və bu münasibətlərin Azərbaycan–İran əlaqələrinə təsirini izah etmək üçün mühüm analitik alət təqdim edir. Beynəlxalq sistemin anarxik quruluşu, regional güc balansı və təhlükəsizlik dilemması kimi amillər Azərbaycanın xarici siyasət seçimlərini şərtləndirən əsas faktorlar kimi ön plana çıxır.

Azərbaycan xarici siyasətində israil faktoru

Azərbaycan-İsrail münasibətləri müstəqillikdən sonrakı dövrdə mərhələli şəkildə inkişaf etmiş və zamanla strateji xarakter almışdır. İsrailin Azərbaycanın müstəqilliyini erkən tanıyan

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

dövlətlərdən biri olması bu münasibətlərin siyasi əsaslarını formalaşdırmış, sonrakı mərhələdə isə əməkdaşlıq enerji, müdafiə sənayesi, təhlükəsizlik və texnologiya sahələrini əhatə edərək dərinləşmişdir. Xüsusilə İsrailin Azərbaycanın əsas enerji idxalçılarından biri kimi çıxış etməsi və qarşılıqlı iqtisadi asılılığın artması ikitərəfli münasibətlərin strateji mahiyyətini daha da gücləndirmişdir (Rahimov, 2024, s. 42-44). Müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq Azərbaycan–İsrail münasibətlərinin ən həssas və eyni zamanda ən mühüm komponentlərindən biridir. İsrailin yüksək texnologiyaya əsaslanan hərbi sənaye potensialı Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm rol oynamışdır. Bu əməkdaşlıq xüsusilə pilotsuz uçuş aparatları, kəşfiyyat sistemləri və müdafiə texnologiyaları sahəsində özünü göstərmişdir. Neorealist yanaşmaya görə, dövlətlər mövcud təhlükəsizlik mühitində hərbi üstünlüklərini artırmaqla öz mövqelərini möhkəmləndirməyə çalışırlar və bu baxımdan Azərbaycanın İsrail ilə əməkdaşlığı rasional təhlükəsizlik strategiyası kimi qiymətləndirilə bilər (Waltz, 1979, s. 101–102).

Azərbaycanın İsrail ilə yaxınlaşmasını şərtləndirən əsas amillərdən biri Ermənistanla uzunmüddətli münaqişə və regionda mövcud olan qeyri-sabitlikdir. Ermənistanın hərbi baxımdan regional və qlobal güclər tərəfindən dəstəklənməsi Azərbaycanın təhlükəsizlik balansını pozmuş və onu alternativ hərbi-texnoloji tərəfdaşlar axtarmağa sövq etmişdir. Bu kontekstdə İsrail ilə əməkdaşlıq Azərbaycanın hərbi imkanlarını diversifikasiya etməsinə və regional güc balansında mövqeyini gücləndirməsinə xidmət etmişdir (İsmayılov, 2015, s. 4–5).

Neorealist nəzəriyyə prizmasından baxıldıqda, Azərbaycanın İsrail ilə münasibətləri yalnız ikitərəfli əməkdaşlıq kimi deyil, eyni zamanda regional balanslaşdırma siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir. Azərbaycan Rusiya və İran kimi regional güclərin təsir dairəsində yerləşən dövlət olaraq təhlükəsizliyini təmin etmək üçün xarici balanslaşdırma strategiyasına üstünlük vermişdir. İsrail ilə qurulan strateji əlaqələr bu balanslaşdırma siyasətinin mühüm elementlərindən biri kimi çıxış edir (Kardaş & Balcı, 2014, s. 126–127). Bununla yanaşı, Azərbaycan–İsrail münasibətləri diplomatik müstəvidə də Azərbaycanın beynəlxalq manevr imkanlarını genişləndirmişdir. İsrailin Qərb dövlətləri ilə sıx əlaqələri Azərbaycanın beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə dolayı yolla töhfə vermişdir. Neorealist yanaşmaya əsasən, dövlətlər yalnız birbaşa təhlükəsizlik deyil, həm də diplomatik və strateji üstünlüklər əldə etmək məqsədilə tərəfdaşlıqlar qururlar. Bu baxımdan İsrail faktoru Azərbaycanın çoxşaxəli xarici siyasət kursunda mühüm yer tutur (Arı, 2013, s. 373–374).

Nəticə etibarilə, Azərbaycan xarici siyasətində İsrail faktoru təhlükəsizlik, enerji və diplomatik maraqların kəsişməsində formalaşan strateji seçim kimi çıxış edir. Bu seçim Azərbaycanın milli maraqlarına xidmət etsə də, eyni zamanda regional aktorlar, xüsusilə İran tərəfindən diqqətlə

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

izlənilən və bəzən təhlükə kimi qavranılan bir prosesdir. Məhz bu məqam Azərbaycan–İsrail münasibətlərinin Azərbaycan–İran əlaqələrinə təsirini izah edən əsas analitik açarlardan biri hesab oluna bilər (Rahimov, 2024, s. 56–58).

İranın təhlükə qavrayışı

İran İslam Respublikası Azərbaycanın İsrail ilə yaxınlaşmasını öz milli təhlükəsizliyi və regional mövqeyi baxımından potensial təhdid kimi qiymətləndirir. Bu təhlükə qavrayışının əsas səbəbləri sırasında İsrailin Yaxın Şərq və Cənubi Qafqazda artan geosiyasi təsiri, Azərbaycanın strateji-coğrafi mövqeyi və iki ölkə arasında xüsusilə təhlükəsizlik sahəsində dərinləşən əməkdaşlıq ön plana çıxır. İran üçün İsrailin regiona yaxın ərazilərdə mövcudluğu və təsir imkanlarının genişlənməsi uzunmüddətli strateji risk kimi qəbul olunur (Rahimov, 2024, s. 56–58).

Neorealist nəzəriyyə prizmasından yanaşdıqda, İranın bu mövqeyi beynəlxalq sistemin anarxik quruluşu və dövlətlərin təhlükəsizlik yönümlü davranışları ilə izah oluna bilər. Neorealizmə görə, dövlətlər öz təhlükəsizliklərini artırmaq məqsədilə digər dövlətlərin güc artımını və ya yeni strateji tərəfdaşlıqlarını diqqətlə izləyir və bu prosesləri potensial təhlükə kimi dəyərləndirirlər. Azərbaycanın İsrail ilə əməkdaşlığı İran tərəfindən yalnız ikitərəfli münasibət kimi deyil, regionda güc balansını dəyişdirə biləcək amil kimi qiymətləndirilir (Waltz, 1979, s. 101–102).

İranın təhlükə qavrayışını gücləndirən əsas faktorlardan biri Azərbaycanın geosiyasi mövqeyidir. Azərbaycan İranın şimal sərhədlərində yerləşən, enerji və tranzit baxımından strateji əhəmiyyətə malik dövlətdir. Bu baxımdan İsrailin Azərbaycan ilə yaxın əlaqələr qurması İranın regional təhlükəsizlik baxışında "əhatələnmə" (encirclement) qorxusunu gücləndirir. Neorealist yanaşmaya görə, bu cür qavrayışlar dövlətləri balanslaşdırma siyasətinə yönəldir və qarşı tərəfin gücünü neytrallaşdırmaq üçün siyasi, diplomatik və ideoloji vasitələrdən istifadə etməyə sövq edir (Arı, 2013, s. 373–374). İranın bu balanslaşdırma davranışı müxtəlif formalarda özünü göstərir. Diplomatik ritorikanın sərtləşdirilməsi, regional siyasətdə daha aktiv mövqe tutmaq, Azərbaycanın xarici siyasət seçimlərini tənqid edən açıqlamalar və regional ittifaqlarda mövqelərin möhkəmləndirilməsi bu siyasətin əsas elementləri sırasındadır. Bu addımlar neorealist nəzəriyyənin vurğuladığı rasional dövlət davranışına uyğun olaraq, İranın regional güc balansını öz xeyrinə saxlamaq cəhdləri kimi dəyərləndirilə bilər (Rahimov, 2024, s. 60–62). Eyni zamanda, təhlükəsizlik dilemması anlayışı İran–Azərbaycan münasibətlərində mühüm analitik açar rolunu oynayır. Azərbaycanın öz təhlükəsizliyini gücləndirmək məqsədilə İsrail ilə əməkdaşlığı dərinləşdirməsi İran tərəfindən təhdid kimi qəbul edilir və bu da qarşılıqlı etimadsızlığı artırır. Nəticədə, tərəflərin təhlükəsizlik məqsədli addımları regionda gərginliyin artmasına və sabitliyin zəifləməsinə səbəb ola bilir (Buzan & Wæver, 2003, s. 44–45).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

Beləliklə, İranın Azərbaycanın İsrail ilə münasibətlərinə dair təhlükə qavrayışı təkcə ideoloji və siyasi amillərlə deyil, beynəlxalq sistemin struktur xüsusiyyətləri və regional güc balansı ilə sıx bağlıdır. Neorealist baxımdan bu qavrayış İranın regional siyasətini formalaşdıran əsas determinatlardan biri kimi çıxış edir və Azərbaycan–İran münasibətlərinin dinamikasını anlamaq üçün mühüm izah çərçivəsi təqdim edir.

Regional Təhlükəsizlik Kontekstində Münasibətlərin Qiymətləndirilməsi

Azərbaycan–İsrail münasibətlərinin inkişafı və bu münasibətlərin Azərbaycan–İran əlaqələrinə təsiri regional təhlükəsizlik mühitində yeni dinamikalar formalaşdırmışdır. Xüsusilə Cənubi Qafqaz kimi həssas və çoxqatlı təhlükəsizlik mühitinə malik regionda dövlətlərin atdığı hər bir strateji addım digər aktorlar tərəfindən diqqətlə izlənilir və qarşılıqlı təhlükə qavrayışlarını dərinləşdirir. Bu baxımdan, Azərbaycanın İsrail ilə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığının genişlənməsi regional təhlükəsizlik dilemmasının güclənməsinə səbəb olan əsas amillərdən biri kimi çıxış edir (Buzan & Wæver, 2003, s. 44–45).

Təhlükəsizlik dilemması anlayışına görə, bir dövlətin öz təhlükəsizliyini artırmaq məqsədilə atdığı addımlar digər dövlətlər tərəfindən təhdid kimi qəbul edilə bilər və bu proses qarşılıqlı etimadsızlığı dərinləşdirir. Azərbaycanın İsrail ilə əməkdaşlığı ilk növbədə öz milli təhlükəsizliyini təmin etməyə yönəlsə də, İran bu prosesi regional güc balansının pozulması və öz təhlükəsizlik maraqlarına zidd addım kimi qiymətləndirir. Nəticə etibarilə, tərəflərin təhlükəsizlik yönümlü davranışları regionda gərginliyin artmasına zəmin yaradır (Arı, 2013, s. 373–374). Regional Təhlükəsizlik Kompleksi yanaşması bu prosesləri izah etmək baxımından mühüm analitik çərçivə təqdim edir. Bu yanaşmaya görə, müəyyən coğrafi regionda yerləşən dövlətlərin təhlükəsizlik problemləri bir-biri ilə sıx bağlıdır və ayrı-ayrılıqda qiymətləndirilə bilməz. Azərbaycan, İran və İsrail arasında formalaşan təhlükəsizlik münasibətləri də məhz bu qarşılıqlı asılılıq kontekstində dəyərləndirilməlidir. Azərbaycanın İsrail ilə yaxınlaşması yalnız ikitərəfli münasibətlərin deyil, bütövlükdə regionun təhlükəsizlik arxitekturasının transformasiyasına təsir göstərir (Buzan & Wæver, 2003, s. 44–45).

Bununla yanaşı, Azərbaycanın regional təhlükəsizlik mühitində tutduğu mövqe onu praqmatik və balanslaşdırılmış xarici siyasət yürütməyə sövq edir. Neorealist nəzəriyyəyə əsasən, orta ölçülü dövlətlər tam konfrontasiyadan çəkinərək müxtəlif güc mərkəzləri arasında tarazlıq yaratmağa çalışırlar. Azərbaycan da bir tərəfdən İsrail ilə strateji əməkdaşlığını davam etdirir, digər tərəfdən isə İran ilə münasibətləri tam qarşıdurma mərhələsinə çatdırmamaq üçün diplomatik kanalları açıq saxlayır (Rahimov, 2024, s. 64–66).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

Bu balanslaşdırma siyasəti regional sabitliyin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan üçün əsas məqsəd regional güc balansında öz mövqeyini qorumaq, eyni zamanda təhlükəsizlik risklərini minimuma endirməkdir. Bu yanaşma həm neorealist nəzəriyyənin rasional dövlət davranışı modelinə, həm də regional təhlükəsizlik reallıqlarına uyğun gəlir. Beləliklə, Azərbaycan–İsrail münasibətlərinin Azərbaycan–İran əlaqələrinə təsiri regional təhlükəsizlik mühitində həm risklər, həm də idarəolunan balans mexanizmləri yaradan çoxölçülü proses kimi xarakterizə oluna bilər.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, Azərbaycan–İsrail münasibətləri Azərbaycanın müstəqillikdən sonrakı dövrdə formalaşdırdığı milli təhlükəsizlik və xarici siyasət strategiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu münasibətlər təkcə ikitərəfli siyasi və iqtisadi əməkdaşlıq çərçivəsində deyil, daha geniş regional və beynəlxalq güc balansı kontekstində qiymətləndirilməlidir. Xüsusilə müdafiə və təhlükəsizlik sahəsində qurulan strateji əməkdaşlıq Azərbaycanın regional risklərə qarşı dayanıqlığını artırmış və onun geosiyasi mövqeyini möhkəmləndirmişdir (Rahimov, 2024, s. 72–73).

Bununla yanaşı, tədqiqatda aydın şəkildə ortaya qoyulur ki, Azərbaycan–İsrail münasibətlərinin dərinləşməsi İran tərəfindən milli təhlükəsizliyə yönəlmiş potensial təhdid kimi qavranılır. Bu təhlükə qavrayışı Azərbaycan–İran münasibətlərində etimadsızlığın artmasına, siyasi-diplomatik gərginliyin yüksəlməsinə və regionda təhlükəsizlik dilemmasının dərinləşməsinə səbəb olur. İranın bu mövqeyi neorealist nəzəriyyənin vurğuladığı kimi, beynəlxalq sistemin anarxik quruluşu və dövlətlərin öz təhlükəsizliklərini təmin etməyə yönəlmiş rasional davranışları ilə izah oluna bilər (Waltz, 1979, s. 101–102). Neorealist baxımdan Azərbaycan, regional güclər arasında yerləşən orta ölçülü dövlət kimi, öz təhlükəsizliyini təmin etmək məqsədilə balanslaşdırılmış xarici siyasət yürütməyə məcburdur. İsrail ilə əməkdaşlıq bu balanslaşdırma siyasətinin mühüm elementlərindən biri kimi çıxış edir. Eyni zamanda, Azərbaycan İran ilə münasibətləri tam konfrontasiya mərhələsinə çatdırmamaq üçün diplomatik manevr imkanlarını qoruyur və regional sabitliyin saxlanılmasına yönəlmiş praqmatik xətt yürüdür. Bu yanaşma rasional dövlət davranışının və güc balansına əsaslanan siyasətin praktik təzahürü kimi dəyərləndirilə bilər (Arı, 2013, s. 373–374).

Nəticə etibarilə, Azərbaycan–İsrail münasibətlərinin Azərbaycan–İran əlaqələrinə təsiri Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqların və beynəlxalq sistemdəki struktur dəyişikliklərin bariz göstəricisidir. Tədqiqat sübut edir ki, regionda uzunmüddətli sabitliyin qorunması yalnız bir güc mərkəzinə söykənən siyasət vasitəsilə deyil, müxtəlif aktorlar arasında tarazlığın qorunması və rasional balanslaşdırma strategiyasının davam etdirilməsi ilə mümkündür.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

Bu baxımdan, Azərbaycanın çoxşaxəli və çevik xarici siyasət kursu həm milli maraqların müdafiəsi, həm də regional təhlükəsizliyin təmin olunması baxımından optimal model kimi qiymətləndirilə bilər (Rahimov, 2024, s. 74–75).

ƏDƏBİYYAT

1. Arı, T. (2004). *Uluslararası ilişkiler ve dış politika*. Bursa: Alfa Yayınları.
2. Arı, T. (2013). *Uluslararası ilişkiler teorileri: Çatışma, hegemonya, işbirliği*. Bursa: MKM Yayıncılık.
3. Buzan, B., & Wæver, O. (2003). *Regions and powers: The structure of international security*. Cambridge: Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511491252
4. Carr, E. H. (2018). *Yirmi yıl krizi: 1919–1939* (Çev. C. Yıldırım). İstanbul: İletişim Yayınları. (Orijinal əsər 1939-cu ildə nəşr olunmuşdur)
5. Eralp, A. (2012). Uluslararası ilişkiler kuramları. In A. Eralp (Ed.), *Devlet, sistem ve kimlik* (ss. 145–170). İstanbul: İletişim Yayınları.
6. Glaser, C. L. (2010). *Rational theory of international politics: The logic of competition and cooperation*. Princeton, NJ: Princeton University Press. https://doi.org/10.1515/9781400837827
7. Hobbes, T. (2016). *Leviathan* (Çev. S. Lim). İstanbul: Yapı Kredi Yayınları. (Orijinal əsər 1651-ci ildə nəşr olunmuşdur)
8. İsmayılov, E. (2015). *Azerbaycan'ın dış politika öncelikleri ve bölgesel güvenlik*. Bakı: Elm və Təhsil.
9. Kardaş, Ş., & Balcı, A. (2014). *Uluslararası ilişkiler teorileri*. İstanbul: Küre Yayınları.
10. Lawson, G. (2015). *The global transformation: History, modernity and the making of international relations*. Cambridge: Cambridge University Press. https://doi.org/10.1017/CBO9781139629373
11. Machiavelli, N. (2014). *Prens* (Çev. S. Oğuz). İstanbul: Can Yayınları. (Orijinal əsər 1532-ci ildə nəşr olunmuşdur)
12. Mearsheimer, J. J. (2006). *The tragedy of great power politics*. New York, NY: W. W. Norton & Company.
13. Özdaşlı, E., & Kodaman, T. (2016). Azerbaycan dış politikasının temel parametreleri. *Uluslararası Sosyal Araştırmalar Dergisi*, 9(43), 219–232.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

14. Rahimov, A. (2024). *Azərbaycan–İsrail münasibətlərinin Azərbaycan–İran münasibətlərinə yansıması* (Yayımlanmamış magistr dissertasiyası). Bursa Teknik Üniversitesi, Lisansüstü Eğitim Enstitüsü.
15. Sever, A. (2012). Güç dengesi ve dış politika. *Uluslararası İlişkiler*, 9(34), 1–25.
16. Sönmezoğlu, F. (2014). *Uluslararası politika ve dış politika analizi*. İstanbul: Der Yayınları.
17. Waltz, K. N. (1979). *Theory of international politics*. New York, NY: McGraw-Hill.
18. Waltz, K. N. (2015). *Uluslararası politikanın yapısı* (Çev. O. İnat). İstanbul: Küre Yayınları. (Orijinal əsər 1979-cu ildə nəşr olunmuşdur)

ABSTRACT

THE IMPACT OF AZERBAIJAN–ISRAEL RELATIONS ON AZERBAIJAN–IRAN RELATIONS: A NEOREALIST APPROACH

Huseyn Abbasov

This article analyzes the formation and development dynamics of Azerbaijan–Israel relations, as well as the impact of these relations on Azerbaijan-Iran ties, within the framework of neorealist theory. The study argues that Azerbaijan's strategic cooperation with Israel-deepened in recent years-is not incidental; rather, it is closely linked to the country's national security interests, regional risks, and balance-of-power realities. According to the neorealist approach, in an anarchic international system states primarily seek to ensure their own security and therefore prioritize potential partnerships to that end. From this perspective, cooperation with Israel functions for Azerbaijan as a balancing mechanism within the regional security environment. The protracted conflict with Armenia, military-political instability in the region, and Iran's growing influence have made it necessary for Azerbaijan to seek alternative security and technological partners. Military-technical and intelligence cooperation with Israel contributes to enhancing Azerbaijan's defense capabilities and strengthening its position within the regional balance of power. At the same time, this strategic rapprochement is assessed by Iran through a negative, threat-oriented lens. Iran perceives Azerbaijan-Israel relations as a potential risk to its national security and regional standing, which in turn deepens mistrust between the two countries. Neorealist theory suggests that when measures aimed at increasing one state's security are perceived as threatening by another state, a classic "security dilemma" emerges-one of the principal factors exacerbating regional tensions. Thus, while Azerbaijan-Israel strategic cooperation addresses Azerbaijan's national interests and security needs, it simultaneously constitutes one of the key sources of tension in Azerbaijan-Iran relations. This situation once again demonstrates how sensitive and fluid the balance of power is in the South Caucasus.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 31-41
DOI: https://doi.org/10.5281/zenodo.24138689

Keywords: *Neorealism; regional security; balance of power; Azerbaijan-Israel relations; Azerbaijan-Iran relations*

АННОТАЦИЯ

ВЛИЯНИЕ АЗЕРБАЙДЖАНО-ИЗРАИЛЬСКИХ ОТНОШЕНИЙ НА АЗЕРБАЙДЖАНО-ИРАНСКИЕ ОТНОШЕНИЯ: НЕОРЕАЛИСТСКИЙ ПОДХОД

Гусейн Аббасов

В статье анализируются формирование и динамика развития азербайджано–израильских отношений, а также влияние этих отношений на азербайджано–иранские связи в рамках неореалистской теоретической парадигмы. В исследовании обосновывается, что стратегическое сотрудничество Азербайджана с Израилем, углубившееся в последние годы, не носит случайного характера, а тесно связано с национальными интересами безопасности страны, региональными рисками и реалиями баланса сил (Rahimov, 2024, с. 10–11). Согласно неореалистскому подходу, в анархической международной системе государства в первую очередь стремятся обеспечить собственную безопасность и с этой целью отдают предпочтение потенциальным партнёрствам (Waltz, 1979, с. 101–102). С этой точки зрения сотрудничество с Израилем выступает для Азербайджана в качестве балансирующего механизма в региональной среде безопасности. Затяжной конфликт с Арменией, военно-политическая нестабильность в регионе и рост влияния Ирана обусловили необходимость поиска Азербайджаном альтернативных партнёров в сфере безопасности и технологий. Военно-техническое и разведывательное сотрудничество с Израилем способствует повышению обороноспособности Азербайджана и укреплению его позиций в региональном балансе сил (İsmayılov, 2015, с. 4–5). Вместе с тем данное стратегическое сближение оценивается Ираном через негативную, ориентированную на угрозы призму. Иран воспринимает азербайджано–израильские отношения как потенциальный риск для собственной национальной безопасности и регионального положения, что, в свою очередь, приводит к углублению недоверия между двумя странами (Rahimov, 2024, с. 56–58). В соответствии с неореалистской теорией, когда меры, направленные на повышение безопасности одного государства, воспринимаются другим государством как угроза, возникает классическая «дилемма безопасности», являющаяся одним из основных факторов роста региональной напряжённости (Arı, 2013, с. 373–374). Таким образом, стратегическое сотрудничество Азербайджана и Израиля, с одной стороны, отвечает национальным интересам и потребностям безопасности Азербайджана, а с другой — выступает одним из ключевых источников напряжённости в азербайджано–

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24138689

иранских отношениях. Данная ситуация наглядно демонстрирует, насколько чувствительным и изменчивым является баланс сил на Южном Кавказе.

Ключевые слова: *неореализм; региональная безопасность; баланс сил; азербайджано–израильские отношения; азербайджано–иранские отношения*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license